**Yaraşıq vergisi**

Yaponiyanın Dokkyo Universitetinin iqtisadiyyatçı professoru Takuro Morinaqa ölkədə getdikcə artan subaylığın və doğum səviyyəsinin azalmasının qarşısını almaq üçün parlament qarşısında maraqlı təklif irəli sürüb. Professor yaraşıqlı kişilərin daha çox vergi ödəməsi ilə bağlı qanun çıxarılmasını təklif edib. Professorun fikrincə, kişilər 4 yerə ayrılmalıdır. 5 qadından ibarət münsiflər heyətinin qiymətləndirəcəkləri kişilərə «yaraşıqlı», «normal», «az çirkin» və «çirkin» statusları veriləcək. Professor bildirib ki, ölkədə bir neçə qadınla birlikdə olmaları normal qəbul edilən varlı və yaraşıqlı kişilər ikiqat vergi ödəməlidirlər. «Normal» kateqoriyasına aid edilən kişilərin ödədiyi vergi dəyişməyəcək. Ancaq «az çirkin»lər 10 faiz, «çirkin» kişilər isə 20 faiz az vergi ödəyəcək. Bunun sayəsində çirkin kişilərin daha çox pul qazanıb evlənmələri üçün daha yaxşı şərait qurmaları mümkün olacaq. Yaraşıqlı və subay kişilər də çox vergi ödəmələri səbəbindən pul problemi yaşayacaqları üçün qadınlarla gəzməyi buraxıb, evlənmək haqqında düşünməyə başlayacaqlar. Yaponiyada 30-35 yaşlı kişilərin 50 faizinin subay olması professoru belə bir təklif verməyə vadar edib.